**D İ L Ç İ L İ K A R A Ş D I R M A L A R I**

**Sentyabr-Dekabr/2021** **№ 2**

**UOT: 81.23**

**AYTAC HƏSƏNOVA***

# KOQNİTİV İNKİŞAFIN GEDİŞİNDƏ UŞAQLAR TƏRƏFİNDƏN DİLİN İFADƏ VƏ MƏZMUN PLANININ MƏNİMSƏNİLMƏSİ

**XÜLASƏ**

Məqalə uşaqlarda nitqin və təffəkkür əməliyyatlarının formalaşması məsələsinə həsr olunmuşdur. Uşaqlar tərəfindən nitqyaratma fəaliyyətinin mənimsənilməsi müxtəlif dövrlərdə tədqiqat mövzusuna çevrilmişdir. Məqalədə müxtəlif psixolinqvistik nəzəriyyələr əsasında nitq bacarıqlarının meydana gəlməsini şərh edən fərqli mülahizələr nəzərdən keçirilir. Koqnitiv inkişafın erkən mərhələlərində sözün mənası üçün xas olan əsas cəhətlər xarakterizə edilir. Dilin və nitqin meydana gəlməsi təkcə fizioloji deyil, həm də psixoloji fəaliyyətin nəticəsini özündə birləşdirir. İntellektual inkişafın müxtəlif mərhələlərində uşaqlar tərəfindən dilin ifadə və məzmun planının mənimsənilməsi mürəkkəb koqnitiv proseslərin nəticəsidir. Dili və onun struktur elementlərini mənimsəmənin koqnitiv bazası sosial təcrübə yolu ilə formalaşır. Çoxpilləli proseslərin nəticəsi olaraq sözdən nominativ funksiyada istifadə bacarığı formalaşır və inkişaf edir, eləcə də sözün müxtəlif predmetlərlə əlaqələndirilməsi həyata keçirilir və bu proses mürəkkəb təfəkkür əməliyyatları ilə davam etdirilir. Sonrakı dövrdə isə mövcud sözlərə yeni məzmun qazandırılır. Bir neçə məna komponenti bir forma daxilində birləşdirilir və söz, praktiki kontekstdən asılı olaraq müvafiq məzmunun ifadəçisinə çevrilir. İntellektual inkişaf prosesində dil elementləri həm forma, həm də məzmun baxımından dəyişikliklərə məruz qalır.

**Açar sözlər:** *psixolinqvistika, intellektual inkişaf, sinkretik anlayışlar*

Uşaq nitqi və təfəkkürünün formalaşması və inkişafı psixolinqvistik tədqiqatlarda daima diqqət mərkəzində olan məsələlərdəndir. Uşaqlar tərəfindən dilin mənimsənilməsinin uzun tədqiqat tarixi vardır. Psixolinqvistika tarixində uşaqlarda nitq vərdişinin formalaşmasının fərqli nəzəriyyələr əsasında şərhinə dair fikirlərə rast gəlinir. N.Xomski tərəfindən irəli sürülən transformativ qrammatika nəzəriyyəsində nitq davranışının mənimsənilməsi üçün, müəyyən koqnitiv dərketmə strukturlarının tələb olunması əsas xüsusiyyət kimi nəzərdən keçirilir. Burada dili mənimsəmə qrammatik strukturlarla bağlı uşaqda əvvəlcədən mövcud olan qrammatik bilgilərin aktuallaşması kimi başa düşülür. Bu nəzəriyyə neobiheviorizmin linqvistik əsaslarını təşkil edir. Lakin, dil və onun strukturlarının mənimsənilməsinin koqnitiv bazası sosial təcrübə ilə formalaşdığına görə, N.Xomskinin dil bilgilərinin formalaşmasının koqnitiv bazasının anadangəlmə xarakteri haqqında nəzəriyyəsi bir o qədər də inandırıcı olmadı və əsaslı tənqidlərə məruz qaldı.

N. Xomskinin sözügedən ideyasını tənqid edənlərdən biri A.R.Luriya olmuşdur. Alim hesab edir ki, dil strukturlarının mənimsənilməsi üçün koqnitiv bazanın formalaşmasının əsaslarını uşağın böyüklərlə ünsiyyəti fonunda reallaşan qeyri-nitq fəaliyyətində axtarmaq lazımdır. O, insanda yüksək psixoloji funksiyanın – dil strukturlarından istifadə bacarığının formalaşmasını dərketmə proseslərindən təcrid etmir. J. Piaje isə dilin meydana çıxması üçün zəmin hazırlanmasında sensomotor intellektin rolunu qeyd edirdi. Uşağın verbal şəkildə həyata keçirdiyi məntiq əməliyyatları, əvvəlcə, onun perseptiv sahəsində mövcud olan predmetlərlə əməliyyatlar şəklində formalaşmalıdır [Тарасов: 1987, s. 62]. N. Xomskidən fərqli olaraq, J. Piaje, dil biliklərinin meydana gəlməsini koqnitiv fəaliyyətin nəticəsi hesab edirdi.

Beləliklə, uşağın nitqdənkənar fəaliyyəti, onun böyüklərlə birgə fəaliyyəti uşağa real aləmin həm də sintaktik strukturlarda əks olunan əlaqələr sistemini mənimsəmək imkanı verir. Demək, uşağın sintaktik strukturun elementləri arasındakı əlaqəni kəşf etməsi təkcə "ilkin dil məlumatlarının" təhlili nəticəsində deyil, həm də onun təkrar olunan situasiyalarda böyüklərlə nitq ünsiyyətinin təhlili nəticəsində baş verir.

Bəzi mənbələrdə uşaq nitqi və təfəkkürünün inkişafı prosesi ictimai-tarixi təfəkkürün inkişafı, həmçinin müxtəlif dillərin formalaşması prosesi ilə eyniləşdirilir və ya bənzər hesab edilir. Lakin, nəzərə almaq lazımdır ki, ontogenezdə söz fondunun formalaşmasını, həmçinin ictimai təfəkkürün inkişafını şərtləndirən əsaslar

* AMEA Nəsimi adına Dilçilik institutu, doktorant,e-mail: aytac.hasanova11@gmail.com

tamamilə fərqli olmuşdur. Belə ki, hazır dil faktlarına hələ rast gəlinməyən ontogenezdə, uşaqlarda nitqin formalaşmasından fərqli olaraq ifadə vasitələrini təlqin etmə imkanları mövcud deyildi. Bu səbəbdən, dil struktur vahidlərinin formalaşması qanunauyğunluqları uşaqlar tərəfindən dilin ifadə vasitələrinin mənimsənilməsindən fərqli hesab edilə bilər.

Uşaq təfəkkürü və nitqinin təhlili sahəsində İsveçrəli psixoloq, koqnitiv inkişaf nəzəriyyəsinin yaradıcısı J.Piajenin tədqiqatları mühüm əhəmiyyət kəsb edir. J. Piajenin bu nəzəriyyəyə gətirdiyi elmi yenilik ondan ibarətdir ki, uşaqların şüur və təfəkkür imkanları yaş qruplarına uyğun şəkildə, mərhələlərlə inkişaf edir. Onun "Uşaqda dil və düşüncə" adlı əsəri uşaq psixologiyasının elmi izahını verən əsas mənbələrdən biridir. J. Piaje uşaq psixikasının xüsusiyyətləri və uşaqların dünya haqqında təsəvvürlərini eqosentrizm anlayışı ilə təsvir etmişdir: bu uşağın onu əhatə edən aləmə münasibətidir, sosiallaşma ilə bu dövr tədricən yekunlaşır. J.Piaje və L.Vıqotski arasındakı fikir ayrılığına səbəb olan başlıca məqam uşaqda dil və təfəkkürün inkişafı üzrə onların təqdim etdikləri inkişaf modelləridir. Klassik psixolinqvistikanın nümayəndələrindən L.Vıqotski uşaqda dil və təfəkkürün inkişaf modelini J. Piajenin *autistik-eqosentrik-sosial* mərhələli sıralamasının əksinə *sosial-eqosentrik-daxili nitq* kimi üç ardıcıl mərhələdən ibarət olduğunu hesab etmiş, nəticə etibarilə uşaq düşüncəsinin müəyyən bir məqsədə, yəni sosial ünsiyyət qurmağa istiqamətləndiyini göstərmişdir. Belə ki, L.Vıqotskiyə görə danışmanın, nitqin məqsədi elə körpəlik dövründən etibarən uşaq və ətraf aləm arasında sosial ünsiyyəti təmin etməkdən ibarətdir. Göründüyü kimi, hər iki alim dil və düşüncənin inkişafında eqosentrizmin keçid mərhələ təşkil etməsi fikrində ortaq olmuşlar. Lakin, J.Piaje eqosentrik nitqin sosial nitqlə əvəzləndiyini və beləliklə eqosentrik düşüncənin yox olmasını göstərmişdir. Ondan fərqli olaraq, L.Vıqotski eqosentrik təfəkkürün sosial təfəkkürə çevrilmədiyini, sosial təfəkkürün körpəlikdən mövcud olduğunu vurğulamışdır. L. Vıqotskiyə görə, eqosentrik nitq daxili nitqə çevrilir. Daxili nitqdə vokallaşmaya ehtiyac duyulmur. Yetkin insanda daxili nitq uşaqlarda müşahidə olunan eqosentrik düşüncəylə eyni funksiyanı yerinə yetirir. L.Vıqotski eqosentrik nitqi xarici nitqdən daxili nitqə keçid forması adlandırır [Выготский: 2018, s. 65]. Bu məqamda daxili və xarici nitq məsələsini aydınlaşdırmaq daha məqsədəuyğundur. Belə ki, daxili nitq adlandırılan, əslində, intellekt obrazlarının sıralanması səviyyəsində söyləmin formalaşmasıdır. Linqvo-psixoloji vəhdət nəzəriyyəsində təqdim olunan dördüncü fazanın, nitqyaratmanın birinci pilləsi məhz bunu nəzərdə tutur.

M.Əsgərov uşaqlar tərəfindən gerçəklik elementinin dərk olunması və dil struktur vahidlərinin mənimsənilməsini paralel şəkildə cərəyan edən proseslər kimi nəzərdən keçirir [Əsgərov: 2011, s. 245] və mövcud dil struktur vahidinin uşaqlar tərəfindən mənimsənilməsi mexanizmini 5 aktdan ibarət ardıcıllıq şəklində təqdim edir: *1.nitq ehtiyacı – 2. dil struktur vahidi ilə kontakt – 3. ikinci intellekt obrazının yaranması – 4. gerçəklik elementi ilə qarşılaşdırma – 5. birinci intellekt obrazı ilə birləşmə* [Əsgərov: 2011, s. 192]. Beləliklə, birinci intellekt obrazları birinci sıra gerçəklik elementinin dərk olunması nəticəsində və həmin gerçəklik elementinə ekvivalent olmaqla yaradılır. Sonrakı mərhələdə isə dil struktur vahidinin intellekt obrazı gerçəklik elementinin dərk olunması nəticəsində yaranmış birinci intellekt obrazı ilə birləşir və tam intellekt kodu yaranmış olur. Uşaqda gerçəklik elementi müəyyən bir ehtiyac əsasında formalaşaraq dərk olunur və ona ekvivalent olan birinci intellekt obrazı yaranır. Eynilə, uşağın nitqində mövcud intellekt obrazına ekvivalent olan yeni dil struktur vahidinin yaranması üçün də nitq ehtiyacının mövcudluğu mühüm şərtdir.

Dilin məzmun sisteminin uşaqlar tərəfindən mənimsənilməsi və həmin sistemdən özünün koqnitiv inkişafı gedişində istifadə etməsi onda dünyanın konseptual mənzərəsinin formalaşmasını göstərir. L.Vıqotski "Təfəkkür və nitq" əsərində yazır: "Uşağın inkişafının başlanğıc mərhələsində biz şübhəsiz nitqin formalaşması prosesində intellektəqədərki mərhələnin, eləcə də təfəkkürün inkişafında nitqəqədərki mərhələnin mövcudluğunu iddia edə bilərdik. Düşüncə və söz başlanğıcda öz aralarında bir-birinə bağlı olmur. Bu əlaqə düşüncə və sözün inkişafının gedişatı zamanı meydana çıxır, dəyişir və artır" [Выготский: 2018, s. 352]. A.A.Leontyev yazır: "Normativ fonetika və semantika ilə tanış olan uşaq tədricən zaman keçdikcə dil standart-

larına uyğunlaşdırdığı öz nitq mexanizmini, "fərdi dil sistemini" formalaşdırır... Uşağa bəlli olur ki, müəyyən bir söz gerçəklikdəki bu və ya digər hadisəyə aiddir; lakin, bu əlaqənin mahiyyəti uşağın müxtəlif yaş dövrlərində fərqli olur" [Леонтьев: 1969, s. 167]. H. Rubinşteyn və M. Aborna görə, uşaq üçün dili öyrənmək, bəzi hallarda qeyri-bənzər stimulun eyni, bənzər stimulların isə fərqli adlarla adlandırıldığı sxemlərinin mənimsənilməsini özündə birləşdirir [Rubenstein: 1960, s. 307].

Uşaqlarda, 1 yaşdan 3,5 yaşadək olan dövrdə sözün ən başlıca funksiyası olan adlandırma və ya predmetlə əlaqələndirmə funksiyasının formalaşma və inkişafı müşahidə olunur. Söz, müəyyən bir predmet, əlamət, hərəkət və ya münasibətin adını bildirməklə bir tərəfdən müəyyən predmetlə əlaqəni, digər tərəfdən isə ümumiləşdirməni əks etdirir. Erkən mərhələdə uşaq sözü situativ amillərdən asılı olaraq başa düşür. Hətta, bəzən sözün mənası onu müşayiət edən situativ amillərin təsiri ilə dəyişir. Sözün predmetlə müstəqil şəkildə əlaqələndirilməsi təxmini olaraq 2 yaş dövrünə təsadüf edir. Sözdə mənanın inkişafı şüurun inkişafı ilə də bağlıdır. A.R. Luriya sözün mənasının məzmun və sistematik inkişafı barədə təlimi şüurun məzmun və sistematik inkişafı barədə təlim kimi müəyyənləşdirir. Onun fikrincə şüur da məzmun və sistem baxımından dəyişikliyə uğrayır. Belə ki, şüur, ilkin etapda affektiv, sonra əyani-əməli, nəhayət yekun mərhələdə isə, verbal-məntiqi xarakter qazanır [Лурия: 1979, s. 33-34].

L.Vıqotski, uşaqlarda nitqin inkişafında müşahidə olunan ilk mərhələni sinkretik anlayışlar mərhələsi hesab edir. Bu mərhələdə sözün mənası sinkretizm ilə fərqlənir, yəni kifayət qədər obyektiv əsas olmadan ayrı-ayrı predmetlərin sinkretik əlaqələndirilməsi xarakteri daşıyır, uşaq təfəkkürünün və hərəkətlərinin qeyri-sabitliyini göstərir. Bu dövr üçün xarakterik olan və müxtəlif predmetlərin obrazlarını özündə birləşdirən sinkretik sözlər affektiv elementlərə də malikdir. Belə sözlərdə müəyyən dərəcədə obyektiv məzmun mövcud olsa da, əks olunan reallıq uşağın subyektiv hissi münasibəti ilə məhdudlaşır. İnkişafın gedişində uşağın nitqi tədricən situasiyadan asılılığı tərk edir, obyektivlik artır və nitq ünsiyyətinin mürəkkəb formaları meydana gəlir. A.A.Leontyev də birinci mərhələni *"ayrı-ayrı predmetlərin sinkretik birləşməsi"* hesab edirək yazır: "Bu mərhələ onunla xarakterizə olunur ki, uşaq aşkara çıxarmış olduğu obyektiv əlaqələrdən deyil, öz təsəvvüründə yaranan subyektiv əlaqələrdən çıxış edir" [Леонтьев: 1969, s. 167]. Dilçilikdə *sinkretizm* bir neçə məna komponentinin bir forma daxilində birləşməsini bildirir. J.Piaje nisbi sinkretizmi uşaq eqosentrizminə xas olan səciyyəvi cəhət kimi dəyərləndirir.

S.D.Kasnelson isə uşaqlarda ilk anlayışların, bilavasitə sözlü şəkildə ifadə olunmayan müxtəlif məzmun anlayışını özündə cəmləşdirmək imkanından bəhs edir. O yazır: "Hər birimizin həyatında elə dövr olmuşdur ki, predmetlər haqqında biliyimiz ümumilikdə formal anlayışlar hüdudundan kənara çıxmırdı" [Кацнельсон: 1965, s. 28].

Beləliklə, inkişafın erkən mərhələsində sözün mənasının formalaşmasında başlıca olaraq əyanilik üstünlük təşkil edir. Bununla yanaşı, ilk anlayışlar həmçinin diffuz xarakter daşıyır. Eyni səs birləşməsi bir neçə predmet, hərəkət və hadisəni ifadə edir. Eyni zamanda, sinkretik sözlər situativliyi ilə fərqlənir. Onların mənası əksər hallarda bilavasitə situasiyadan asılıdır və onunla əlaqədar anlaşılır. Uşağın ilk sözləri A. Luriyanın sözləri ilə desək, dilin inkişafının ilk mərhələlərində olduğu kimi simpraktik xarakterlidir, yəni, praktik fəaliyyətlə sıx bağlıdır [Лурия: 1979, s. 16-17]. Sözlər müstəqil kod mahiyyəti qazandıqda simpraktik kontekstdən sinsemantik sistemə, yəni, hətta situasiyadan kənarda başa düşülə bilən işarələr sisteminə keçid baş verir.

Uşağın ona olunan müraciəti anlamasında eşitmiş olduğu yeni söz və ya formaların hansı gerçəklik elementini əks etdirdiyini müəyyənləşdirməsi vacib məsələdir. Əgər uşaq həmin formanın hansı gerçəklik elementinə və yaxud onun yadda qalmasını təmin edən hansı birinci intellekt obrazına bağlı olduğunu müəyyən edə bilməsə, bu zaman eşitmiş olduğu nitqi tam şəkildə mənimsəməsi mümkün deyil [Əsgərov: 2015, s. 134]. Dərketmənin ümumi mexanizmini isə M.Əsgərov belə izah edir: "Dərketmə aktının birinci yarımaktının tam analizinin nəticələrinə əsaslanaraq belə deyə bilərik ki, insanın beyin aparatı tərəfindən təmasda olduğu bütün gerçəklik elementlərinə ekvivalent olan intellekt obrazları yaradılır və yadda saxlama məhz intellekt obrazları vasitəsilə həyata keçirilir

[Əsgərov: 2015, s. 69]. Yaş fiziologiyasına dair ədəbiyyatlarda da bu barədə bənzər fikirlərə rast gəlinir: "İkinci siqnal sistemi əlaqələrini möhkəmlətmək üçün insan və əşyaların sözlə ifadəsini, onların konkret obrazları ilə əlaqələndirmək lazımdır. Əgər hər hansı əşya, yaxud insanın adı çəkilir və özü də göstərilirsə, müvafiq sözü eşitcək uşaqda həmin obyektə qarşı reaksiya yaranır" [Məmmədov və b.: 2008, s. 358-359]. Deməli, ümumi dərketmə aktını təşkil edən istər birinci, istərsə də ikinci, yəni təfəkkür yarımaktının reallaşması dərketmə və təfəkkürün minimal vahidi hesab edilən intellekt obrazları sayəsində mümkün olur.

Sözlər hətta sabit morfoloji struktur qazandıqdan sonra da mənanın qeyri-stabil xarakteri və simpraktik kontekstdən asılılığı davam edə bilər. Beləliklə, söz, müəyyən bir əlaməti bildirir və bu ümumi əlaməti paylaşan müxtəlif predmetlərə aid edilir. Söz, predmetin bu və ya digər əlamətinə uyğun olaraq, yeni məna kəsb edə bilər. Uşaq, ümumiləşdirməni predmetlər arasında özünün kəşf etdiyi hər hansı əlaqə üzrə əsaslandıra bilər. Sözün konkret bir predmetlə əlaqələnməsi uzun sürən inkişafın nəticədir. Növbəti mərhələlərdə kompleks şəkildə təfəkkür əməliyyatları formalaşır. Tədricən, predmetlər, uşağın öz təsəvvüründə qurduğu subyektiv əlaqələr deyil, həmin predmetlər arasında həqiqətən mövcud olan obyektiv əlaqələr əsasında təfəkkürdə birləşdiririlir. Uşaq sözlərə yeni məzmun qazandırır, müxtəlif sözlərdən sinonim kimi istifadə edir və s.

Beləliklə, intellektual inkişaf prosesində sözün forması ilə yanaşı, mənası da dəyişir. Dilin, nitqin meydana çıxması təkcə fizioloji deyil, həm də psixoloji fəaliyyətin nəticəsidir. Koqnitiv-intellektual inkişafın müxtəlif mərhələlərində uşaqlar tərəfindən dilin ifadə (forma) və məzmun planının mənimsənilməsi mürəkkəb perseptiv-koqnitiv proseslərin nəticəsidir. Bu zaman təkcə sözün əşyavi məzmunu deyil, həm də sözdə gerçəkliyin əks olunması və ümumiləşdirilməsi xüsusiyyətləri də dəyişir.

## ƏDƏBİYYAT


1. Əsgərov M.B. (2011). *Linqvopsixologiya və ya dilin psixologiyası.* Bakı, Elm və təhsil, 308 səh.
2. Əsgərov M.B. (2015). *Linqvo-psixoloji vəhdət nəzəriyyəsi.* Bakı, Elm və təhsil, 192 səh.
3. Кацнельсон С.Д. (1965). *Содержание слова, значения и обозначения.* Москва, Наука, 110 стр.
4. Леонтьев А.А. (2007). *Психолингвистические единицы и порождение речевого высказывание.* Москва, КомКнига, 312 стр.
5. Лурия А.Р. (1979). *Язык и сознание.* Москва, Издательство Московского университета, 320 стр.
6. Məmmədov A.Q., Novruzov H.M., Məmmədova T.A. (2008). *Yaş anatomiyası, fiziologiyası və gigiyenası.* Bakı, Təknur, 444 səh.
7. Rubenstein H. and Aborn M. (1960). *Psycholinguistics*. 370 pp.
8. Тарасов Е.Ф. (1987). *Тенденции развития психолингвистики.* Москва, Наука, 166 стр.
9. Выготский Л.С. (2018). *Мышление и речь.* Санкт-Петербург, Питер, 432 стр.


**Aytaj HASANOVA**

## THE ACQUISITION OF EXPRESSIVE AND SEMANTIC PLAN OF LANGUAGE BY CHILDREN DURING THEIR COGNITIVE DEVELOPMENT

## SUMMARY


The article is devoted to the problem of formation of child speech and thinking process. The acquisition of speech-producing activities by children has a long history of investigation. The article refers to the viewpoints interpreting the origination of language competence based on different psycholinguistic theories. Main features characteristic to the word meaning in the early stages of cognitive and intellectual development are explained. The origination of language and speech is not only the consequence of physiological, but also psychological activities. The acquisition of expressive and semantic plan of language by children during various stages of intellectual development is the result of complex cognitive processes. Cognitive basis of the acquisition of language and its structural units is formulated by means of social practice. The shaping and development of the nominative function of word and its coordination with different objects is the result of multi-stage process, followed by complex thinking operations. In subsequent stages, a child designates new meanings to existing words. A series of semantic components are united within a single form and a word denotes an appropriate meaning depending on the practical context. During the process of intellectual development changes are observed both in the form and content of language units.


**Key words:** *psycholinguistics, intellectual development, syncretic notions*

**Айтадж ГАСАНОВА**

# ОВЛАДЕНИЕ ВЫРАЗИТЕЛЬНЫМ И СЕМАНТИЧЕСКИМ ПЛАНАМ ЯЗЫКА ДЕТЬМИ В ПРОЦЕССЕ ИХ КОГНИТИВНОГО РАЗВИТИЯ

## РЕЗЮМЕ

Статья посвящена проблеме формирования детской речи и мыслительного процесса. Изучение детьми речевого производства имеет долгую историю исследований. В статье говорится о мнениях, интерпретирующих происхождение языковой компетентности на основе различных психолингвистических теорий. Объясняются основные черты, характерные для значения слова на ранних стадиях когнитивного и интеллектуального развития. Происхождение языка и речи является не только следствием физиологической, но и психологической деятельности. Приобретение экспрессивного и семантического плана языка детьми на различных стадиях интеллектуального развития является результатом сложных когнитивных процессов. Когнитивная основа усвоения языка и его структурных единиц формулируется с помощью социальной практики. Формирование и развитие номинативной функции слова и ее координация с различными объектами является результатом многоступенчатого процесса, за которым следуют сложные мыслительные операции. На последующих этапах ребёнок придаёт новые значения уже существующих слов. Ряд семантических компонентов объединяется в одной форме, и слово выражает соответствующее значение в зависимости от практического контекста. В процессе интеллектуального развития наблюдаются изменения как в форме, так и в содержании языковых единиц.

**Ключевые слова:** *психолингвистика, интеллектуальное развитие, синкретические понятия*